# ZAHİD AVŞAR ELOĞLU - 70



Hörmətli Zahid Avşar Eloğlu!

Sizi - tanınmış şairimizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz 1952-ci ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olmusunuz. 1968-ci ildə Ağcabədi rayon Nizami adına Avşar kənd 1 saylı orta məktəbini, 1978-ci ildə isə Gəncə Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmisiniz.

Pedoqoji fəaliyyətə 1970-ci ildə keçmiş DQMV-nin Şuşi kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamış, sonra isə ordu sıralarında hərbi xidmətdə olmusunuz. Ordudan tərxis olunduqdan sonra Ağcəbədi rayonunun Şənlik və Qaradolaq kənd orta məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmisiniz.

Hal-hazırda N.Abdullayev adına Avşar kənd 2 saylı tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir, şagirdlərin təlim-tərbiyəsində, onların milli vətənpərvərlik ruhunda böyüməsində əlinizdən gələni əsirgəmirsiniz.

Sizin müxtəlif illərdə "Yadıma sən düşürsən" (Bakı, Şirvannəşr, 2005), "Dağlar dağımdır mənim" (Bakı, Şirvannəşr, 2008), "Şəhriyarla söhbət" (Bakı, Yazıçı, 2011), "Haqdan gələn səs" (Bakı, Yazıçı, 2011), "Qoca palıdın dastanı" (Bakı, "Elm və təhsil", 2021) kitablarınız çap olunub və oxucular tərəfindən maraqla qarşılanıb.

Siz Azərbaycan Yazıçılarının 12, Aşıqlar birliyinin 5-ci qurultayının nümayəndəsi olmusunuz və 2008-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüsünüz.

2021-ci ildə Orta Asiya Yazarlar və Tarixçilər Birliyi Yönəticiləri Konseyi "Yanqi Ovoz" və Böyük "Turan Birimdiqi" medalı ilə təltif edilmisiniz.

Hörmətli Zahid müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 21 may.- S. 21.**